İPƏK YOLU, No.4, 2022, səh.5-11

# AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-Cİ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMINDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF ETDİRİLMƏSİ MƏQSƏDİ ÜZRƏ NƏTİCƏLƏRİN TƏHLİLİ

**Nurlan Abdullazadə**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: nurlan.abdullazade@yahoo.com

**Xülasə.** 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı istiqamətində müxtəlif dövlət proqramları qəbul edilmiş və müəyyən edilmiş müddət ərzində proqramın icrasının tədbirlər planına uyğun aparılması nəzərdə tutulmuşdur. Son proqramlarda qeyri-neft sektorunun inkişafı əsas hədəflərdən olmuşdur. Məqalədə 2014-2018-ci illəri əhatə edən dövlət proqramında bu sektor üzrə əldə olunan nəticələr təhlil olunur.

**Açar sözlər:** qeyri-neft sektoru, iqtisadiyyat, iqtisadi inkişaf, dövlət proqramı.

## ANALYSIS OF THE RESULTS ON THE PURPOSE OF DEVELOPING THE NON-OIL SECTOR IN THE STATE PROGRAM FOR SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN IN 2014-2018

**Nurlan Abdullazade**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract.** Starting from 2004, various state programs were adopted in the direction of socio-economic development of the regions and it was planned to implement the program in accordance with the action plan within the specified period. In recent programs, the development of the non-oil sector has been one of the main goals. The article analyzes the results achieved in this sector in the state program covering the years 2014-2018.
**Keywords**: non-oil sector, economy, economic development, state program

## АНАЛИЗ РЕЗУЛЬТАТОВ ПО ЦЕЛЯМ РАЗВИТИЯ НЕНЕФТЯНОГО СЕКТОРА В ГОСУДАРСТВЕННОЙ ПРОГРАММЕ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА 2014-2018 ГГ.

**Нурлан Абдуллазаде**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** Начиная с 2004 года были приняты различные государственные программы по направлению социально-экономического развития регионов и в соответствии с планом мероприятий планировалось реализовать программу в указанные сроки. В последних программах развитие ненефтяного сектора было одной из главных целей. В статье анализируются результаты, достигнутые в этой сфере в рамках государственной программы, охватывающей 2014-2018 годы.
**Ключевые слова:** ненефтяной сектор, экономика, экономическое развитие, государственная программа.

## 1. Giriş

Dövlət müəssisələrinin maliyyəsi də regional iqtisadiyyatın inkişafında əhəmiyyətli rola malikdir. Dövlət sektorunun ÜMM-də və regional inkişafda payı arasında korrelyasiya əlaqəsinin olması yüksək ehtimallıdır. Tədqiqatlar həmin əlaqələrin regional iqtisadiyyatın sahələrinin gəlirlilik səviyyəsi ilə bağlı olduğunu qeyd etməyə əsas verir. Regional

iqtisadiyyatın azgəlirli sahələrinin inkişafının tempi və miqyası dövlətin fəaliyyətdə olan maliyyə, büdcə və vergi sistemlərinin xarakteri ilə şərtlənir. Regional iqtisadiyyatın azgəlirli sahələrinin özəl kapital üçün cəlbedici olmaması faktı nəzərə alınmaqla dövlət müəssisələrinin maliyyəsinin regional inkişafda rolunun artması başa düşüləndir [3].

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı istiqamətində müxtəlif dövlət proqramları qəbul edilmiş və müəyyən edilmiş müddət ərzində proqramın icrasının tədbirlər planına uyğun aparılması nəzərdə tutulmuşdur. Dövlət proqramlarının icrası ölkə iqtisadiyyatının inkişafında müstəsna rol oynamaqla yanaşı, investorların regionlara cəlb olunması ilə yeni sahibkarlıq subyektlərinin yaradılmasında və buna uyğun olaraq da yeni iş yerlərinin yaradılmasında, işsizlik səviyyəsinin aşağı salınmasında, əhalinin rifahının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

İlk üç proqram (2004-2008, 2009-2013, 2014-2018) artıq icra edilərək tamamlanmışdır. Sonuncu olaraq 2019-2023-cü illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramı təsdiqlənmişdir və hazırda icra mərhələsindədir. Qəbul olunmuş proqramların mahiyyət və məqsədləri üzrə bir çox layihələr icra olunur ki, bu işlər üçün böyük miqdarda vəsait xərclənir və ən önəmlisi uzun zaman sərf edilir. Ona görə də hər bir proqramın yönəlmiş hədəfə doğru düzgün şəkildə planlanması və icrası olduqca əhəmiyyətlidir.

Xüsusilə də indiki mərhələdə torpaqlarımızın işğaldan azad edilməsi orada böyük investisiya layihələrinin icrasını labüd edir. Həmin şəhərlərdə infrastruktur, sənaye, kənd təsərrüfatı sahələrinin yenidən qurulması istiqamətində xüsusi proqramlar qəbul edilə bilər.

Nəticə olaraq qəbul edilmiş və icrası tamamlanmış proqramların yekunda təhlili, iqtisadiyyatda yaratdığı əlavə dəyər, ölkənin makroiqtisadi göstəricilərində səbəb olduğu dəyişikliklərin araşdırılması və ölçülməsi növbəti proqramların tərtibi zamanı yol xəritəsi ola bilər. Düzgün təhlil edilərək dəyərləndirilmiş bütün proqram və layihələr dövlətin gələcək sosial-iqtisadi fəaliyyəti və siyasəti üçün mayak rolunda çıxış edə bilər.

Bu araşdırma da məhz öncəki və hazırda icra edilməkdə olan dövlət proqramlarının mahiyyət və məqsədləri üzrə təhlilini, onların iqtisadiyyatımıza nə dərəcədə təsir etdiyini araşdırmağı hədəfləyir.

## 2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının mahiyyəti

Azərbaycan Respublikasının Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanına əsasən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır. Dövlət proqramının yaradılmasının əsas məqsədi regionların mövcud potensialından səmərəli istifadə etməkdir. Proqram çərçivəsində tədbirlər planı hazırlanmış və həmin proqrama uyğun olaraq ölkənin iqtisadi rayonları üzrə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [2].

Qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, regionlarda sürətli inkişaf yolunda layihələrin davam etdirilməsi, ən əsası da kəndlərdə infrastruktur və sosial xidmətlərin daha da inkişafı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsəd başlıqları olaraq müəyyən edilmişdir. Tədqiqatın da əsas məqsədi məhz bu məqsədlər üzrə icra olunmuş tədbirlərin nəticələrinin qiymətləndirilməsi və təhlil edilməsidir. Proqramda nəzərə çarpan əsas məqam isə əsas icra göstəricilərinin (KPİ) olmamasıdır. Yəni qeyri-neft sektorunun inkişaf etdirilməsi qeyd olunarkən orada konkret olaraq hansı artım faizindən və ya xüsusi olaraq hansı iqtisadi sahələrdə ola biləcək inkişaf meyarından bəhs olunmur. Qeyri-neft sektoru daha geniş anlayışdır. Buraya kənd təsərrüfatı, turizm, elm, maşınqayırma, tekstil və s. kimi sahələri aid etmək olar. Bu da ümumilikdə proqramın təhlili və qiymətləndirilməsini çətinləşdirir. Daha dəqiq nəticə əldə etmək üçün proqramda bu məqsəd əsasında qeyri-neft sektoru üzrə bütün sahələr ayrı-ayrılıqda təhlil edilməli və hər birinə aid ortaq bir nəticə çıxarılmalıdır. Proqramda məşğulluğun artırılması, iqtisadi artım, büdcə və valyuta gəlirlərindəki əsas mənbə kimi makroiqtisadi sabitliyin qorunmasının tərkib hissəsi olaraq qeyri-neft sektorunun strateji rolunun daha da artırılması ön plana çəkilir.

Qeyri-neft sektorunun inkişafı istiqamətində kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan əhalinin bu sahədə daha da həvəsləndirilməsi, taxıl istehsalı potensialı olan regionların bu sahəyə cəlb edilməsi və taxılçılıqda rəqabət qabiliyyətinin artırılması, dövlət dəstəyi ilə həmin şəxslərə güzəştli kreditlərin verilməsi qarşıda duran əsas məsələlərdəndir. İstehsalçıların xarici bazarlara çıxış imkanlarının yaradılması, aqrar sahənin inkişaf etdirilməsi ilə ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlararası iqtisadi əlaqələrin genişləndirilməsi, neft gəlirlərinin müəyyən hissəsinin sosial sahələrə yönləndirilməsi, gender bərabərsizliyinin azaldılması, kəndlərdə məşğulluq səviyyəsinin artırılması ilə kənd əhalisinin daha böyük şəhərlərə miqrasiyasının azaldılması qeyd edilən proqramın əsas məqsədləri sırasında qeyd olunmuşdur.

## 3. Proqramın tədbirlər planının təhlili

Proqramın tədbirlər planının 4.1.11-ci bəndi nəzərdən keçirilərkən, regionlarda sənaye məhəllələrinin yaradılması əsas tapşırıqlardan biri kimi müəyyən olunduğu nəzərə çarpır. Sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin reallaşdırılması üçün əhəmiyyətli infrastruktura malik olan, kiçik və orta sahibkarların məhsul istehsalı və xidmət göstərmək üçün istifadə etdiyi ərazidir. Belə məhəllələrin yaradılmasında əsas məqsəd sənaye və xidmət sahələrində çalışan kiçik və orta sahibkarların inkişafı üçün münbit şəraitin formalaşdırılması, əhalinin məşğulluğunun artırılmasıdır. Sənaye məhəllələrində bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bunlara torpaq sahəsi və tikililərin icarə haqqının minimum həddə müəyyən edilməsi, güzəştli kreditlər, inzibati proseslərin sadələşdirilməsi və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün xidmətlərin icrası daxildir. Hazırda Azərbaycanda 4 sənaye məhəlləsi fəaliyyət göstərir: Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri. Bu

məhəllələrdən ikisi, yəni Neftçala və Masallı sənaye məhəllələri proqramın əhatə etdiyi müddət çərçivəsində yaradılmışdır. Azərbaycan Respublikasında ilk dəfə belə iqtisadi subyektlərin yaradıldığını nəzərə aldıqda proqramın bu bəndinin icrasını tamamlanmış hesab etmək olar. Çünki proqramda bu məhəllələrin iqtisadiyyata töhfəsi və səmərəsi ilə bağlı konkret bir qeyd olmamışdır. Növbəti proqramlarda artıq onların qazandıracağı iqtisadi mənfəət ilə bağlı daha detallı təhlillərin aparılması uyğun ola bilər.

Təhlili davam etdirərkən tədbirlər planının 4.1.13-cü bəndində kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalı sahələrində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi qeyd olunmuşdur. Bu bənd həm kənd təsərrüfatı, həm də ümumən iqtisadiyyat, xüsusən də qeyri-neft sektorunda iqtisadi göstəricilər üçün müsbət istiqamətdə böyük təkandır. Araşdırma zamanı məlum oldu ki, proqramın əhatə etdiyi müddət ərzində kənd təsərrüfatı sahəsində fərdi sahibkar təsərrüfatlarının sayında azalma dinamikası olmuşdur. Bu dinamika Qrafik 1-də daha aydın müşahidə olunur. Dövlət Statistika Komitəsinin açıqladığı göstəricilərə əsasən 2013-cü ildə, yəni proqramın icrasının başlandığı ildən bir il öncə fərdi sahibkar təsərrüfatlarının sayı 2334 olmuşdur ki, bu da proqramın icrasının tamamlandığı ildəki göstəricidən təqribən 2.6 dəfə çox olmuşdur. Sadəcə qeydə alınan bu fakt tədbirlər proqramında göstərilən bu bəndin icrasının uğurla nəticələnmədiyini, hətta tam əksinə uğursuz olduğunu sübut edir [1].




**Qrafik 1.** 2014-2018-ci illər ərzində kənd təsərrüfatı sahəsində fərdi sahibkar təsərrüfatlarının sayı
**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Tədbirlər planında da göründüyü kimi, proqramın əsas tərkib hissəsini sosial sahənin inkişafı istiqamətində təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman müəssisələrinin tikintisi vəə yenidən qurulması tutur. Bu istiqamətdə müxtəlif regionlarda idman sağlamlıq

kompleksləri, xarici dil təmayüllü internat məktəbləri, səhiyyə müəssisələrinin tikintisi nəzərdə tutulmuşdur.

Proqramın icrası ilə nəzərdə tutulmuş yeni sahibkarlıq subyektlərinin yaradılması və yeni iş yerlərinin açılması ilə iqtisadi fəal əhalinin məşğulluq səviyyəsində artım olacağı gözlənilirdi. Buna baxmayaraq, Dövlət Statistika komitəsinin verdiyi məlumatlara əsasən 2014-cü ildə iqtisadi fəal əhlinin 95%-i məşğul əhali sırasında olsa da, növbəti illərdə bu nisbət daha da azalmış və 2018-ci ildə artıq bu göstəricilər 92%-dən aşağı düşmüşdür. Bununla yanaşı məşğul əhali arasında qadınlar və kişilər arasında say fərqi azalmamış, qadınların yeni iş yerləri ilə təmin edilməsində azalmalar müşahidə olunmuşdur . Belə ki, 2014-cü ildə işsizlər arasında qadınların sayı 141 min olduğu halda 2018 ildə artıq bu ədəd 216 min nəfərdən artıq olub. Araşdırma nəticəsində bu qənaətə gəlmək mümkündür ki, tədbirlər planında qeyd olunmuş gender bərabərsizliyinin azaldılması məsələsi bu proqramın icrası çərçivəsində öz həllini tapmamışdır.

Kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi, şoranlaşmış və eroziyaya uğramış torpaqların yenidən istifadəyə yararlılığını artırmaq məqsədi ilə rekultivasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində 2016-cı ildə ən azı 100 min hektar torpaq sahəsi yeni çəkilmiş kollektor-drenaj sistemi vasitəsi ilə yuyulmuşdur. 2017-ci ildə 200 min hektar bu növdən olan torpaq sahələri yuyularaq yenidən istifadəyə yararlı torpaq sahələri kimi güzəştli şərtlərlə sahibkarlara verilmişdir. Torpaq sahələrindən və yerli resurslardan səmərəli istifadə edilməsi məqsədi ilə yeni növ müasir suvarma sistemlərinin tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bu sahədə ölkəmizdə pivot suvarma qurğularının istehsalı nəzərdə tutulmuşdur. Bu da yerli sahibkarların yeni istehsal sahəsindən gəlir əldə etməsinə kömək edəcəkdir. Digər tərəfdən ölkədən xaricə vəsait getməsinin qarşısının alınmasında rol oynayacaqdır. 2010-cu ildən Sumqayıt Texnologiyalar Parkında (STP) pivot suvarma sitemlərinin istehsalına başlanılmışdır. Proqramın ilk illərində iri fermer təsərrüfatlarında artıq yeni nəsil suvarma sistemlərindən istifadə olunmağa başlanılmışdır. Bu cür suvarma sitemləri məhsuldarlığı artırmaqla yanaşı, sudan səmərəli istifadə edilməsinə imkan yaradır.

Aparılan təhlillər onu göstərir ki, ölkənin bütün sosial-iqtisadi inkişaf parametrləri üzrə həm Bakı-Abşeron zonası ilə ölkənin digər regionaları arasında, həm də Bakı-Abşeron istisna olmaqla, ölkənin qalan regionlarının özləri arasında kəskin fərqlər qalmaqda davam edir. Belə ki, coğrafi baxımdan ölkə ərazisinin cəmi 7%-nə və əhalisinin isə 30%-i qədərinə sahib olan Bakı-Abşeron zonasında 2019-cu ildə ölkə üzrə ümumi məhsul buraxılışının 75.8%-i, ölkə üzrə əhalinin illik ümumi gəlirlərinin 62.2%-i, ölkə üzrə ümumi sənaye istehsalının 89.6%-i, ölkə iqtisadiyyatına ümumi kredit qoyuluşunun 85%-i, əsas kapitala yönəldilən investisiyaların 72.4%-i cəmlənmişdir [4].

Bundan başqa dövlət proqramında ixrac məsələsi də xüsusi vurğulanmış, istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması əsas şərtlərdən biri kimi qeyd olunmuşdur. Proqramın şərtləri və tədbirlər planında 14 dəfə ixrac sözü işlənilmişdir. Dövlət

Statistika Komitəsi məlumatları nəzərdən keçirilərkən belə aydın olur ki, bu şərt də real həyatda öz əksini tapmamışdır. Belə ki, 2013-cü ilin sonuna 24 milyon manata yaxın olan ixrac göstəricimiz proqramın icrasının tamamlanmasının sonu yəni 2018-ci ilin yekununda 19 milyon manat olmuşdur. Yəni proqramın başladığı ildən bir il əvvələ olan göstərici 2018-ci ilin sonuna dövlət proqramı icrasının tamamlanması ilə təqribən 19% azalmışdır. Qrafik 2-də bu azalma dinamikası aydın şəkildə müşahidə olunur.




**Qrafik 2.** 2013-2019-cu illər ərzində ixrac göstəricisi (milyon ABŞ dolları ilə)
**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

**Nəticə.** Bu məqalədə isə konkret olaraq 2014-2018-ci illəri əhatə edən dövlət proqramının məhz qeyri-neft sektoruna təsiri təhlil olunmuşdur. Buna əsasən proqramın tədbirlər planında nəzərdə tutulmuş məqsədlərdən təsadüfi seçim üzrə bir neçə alt başlıq müəyyən edilərək baş verən dəyişikliklər analiz edilmişdir. Regionlarda sənaye məhəllələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalı sahələrində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması əsasında məşğulluğun artırılması və kənd təsərrüfatının inkişafı məqsədi ilə rekultivasiya tədbirlərinin icrası istiqamətləri üzrə həyata keçirilən işlər və göstəricilər əsas təhlil istinadları oldu. Bu dörd bənd üzrə təhlil nəticələri onu deməyə əsas verdi ki, proqram tam olaraq qeyri-neft sektorunun inkişafına öz töhfəsini verə bilməyib. İlk təsir obyekti olaraq seçilən sənaye məhəllələri ilə bağlı müsbət qənaətə gəlmək mümkündür. Proqramın icrası müddətində 2 sənaye məhəlləsi yaradılmışdır. Daha sonra kənd təsərrüfatı sahəsində sahibkarlıq subyektlərinin dinamikası araşdırıldı və belə nəticə əldə olundu oldu ki, 2014-2018-ci illər aralığında 45%-lik azalma qeydə alınıb. Məşğulluq və məşğulluqda gender bərabərliyi mövzusunda da qarşıya qoyulan hədəflər reallaşmamış, 2014-cü ildə iqtisadi fəal əhali

arasında 95% məşğul olan göstərici, 2018-ci ilin sonunda 92%-dən də aşağı düşmüş, işsiz əhali arasında qadınların sayı 1.5 dəfə artmışdır. İxrac göstəricilərində də 19% azalma dinamikası olmuşdur. Təsadüfi üsul ilə seçilmiş bu 5 bənd üzrə təhlillərin yekunu olaraq sadəcə 1-i müsbət nəticə versə də, digər 4 istiqamət üzrə azalmalar, geriləmələr müşahidə olunmuşdur. Buna əsasən dövlət proqramının icrasının effektiv olmadığı, tam əksinə mənfi təsir yaratdığını qeyd etmək mümkündür.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Dövlət Statistika Komitəsinin hesabatı.
2. https://www.stat.gov.az/source/regions/az/p3.pdf
3. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
4. Mahmudov M.M., Mahmudova İ.M. (2011), Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi.
5. Quliyeva A.E. Regional sosial-iqtisadi inkişafın maliyyə təminatı sisteminin təkmilləşdirilməsi məsələləri.
6. Ağayev R., Mehtiyev A. (2021), Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik probleminə dair araşdırma sənədi, Bakı.
7. Bayramov Ə., Bayramov V., Yaqubzadə M. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafında yeni mərhələ, Xalq qəzeti. 2009, 6 may, s. 4-5.
8. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, Bakı, 2007.
9. Nuriyev Ə. Davamlı və tarazlı regional inkişaf, Bakı, Avropa, 2017, 242 s.